Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Çoban Oğlan Davud



Müəllif: Edward Hughes
İllüstrasiya edən: Lazarus
Uyğunlaşdıran: Ruth Klassen
Alastair Paterson
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Uzaq keçmişdə, İsrailin padşahı Şaulun günlərində Davud adlı bir oğlan atasının sürüsünə baxmaq üçün öz yeddi qardaşına kömək edirdi.  Qardaşların ən kiçiyi olmasına baxmayaraq, Davud Allahı sevən və Ona etibar edən güclü və cəsarətli oğlan idi.  O, Bet-Lexem şəhərində yaşayırdı.



Bir dəfə aslan balaca quzunu yemək üçün sürüyə hücum etdi. Gənc Davud da hücum edənə hücum etdi. O, quzunu kənara çəkərək, nərildəyən yırtıcının saqqalından tutdu və onu öldürdü. Davud bilirdi ki, ona Allah kömək etmişdi.



Allahın peyğəmbəri Şamuel padşah Şaulun Allaha bu qədər çox itaətsizlik etdiyinə görə hələ də kədərli idi. Allah Şamueli danladı: “Nə vaxta qədər sən Şaul üçün yas tutacaqsan? Səni Yesseyin yanına göndərirəm… Çünki onun oğulları arasından Özüm üçün padşah seçmişəm”. Yessey Davudun atası idi.



Şamuel başqa padşah axtardığına görə padşah Şaul onu öldürə bilərdi, amma peyğəmbər Allaha itaət etdi.



Şamuel gələndə Yessey oğlanlarının yeddisini Şamuelin qarşısından keçirtdi. Şamuel Yesseyə dedi: “Rəbb bunları seçmədi”.  Təkcə Davud, Yesseyin ən kiçik oğlu qalmışdı.  O, qoyun otarırdı.  Onlar Davudu gətirdilər.  Rəbb dedu: “Dur, onu məsh et; çünki seçilmiş budur”.

Şaulun sarayında Rəbbin Ruhu Şauldan ayrıldı və o, çox bəlalı bir adam oldu. Onun qulluqçuları fikirləşdilər ki, yaxşı musiqi Şaulun düşüncələrini sakitləşdirə bilər. Onlardan biri yaxşı çəng çalan bir gənc oğlanı tanıyırdı. O gənc adamın kim olduğunu tapa bilərsən? Bəli, Davud.



Davudun musiqisi Şaulu sakitləşdirir və ona düzgün fikirləşməkdə kömək edirdi. Davudun padşahın qulluğunda qalması üçün Şaul Yesseydən icazə aldı.  Depressiya, yaxud qorxu Şaula hücum edəndə Davul çəng çalardı.  Bu, kömək edirdi.



Davud evə gedəndən sonra Şaulun Filiştlilərlə böyük döyüşü oldu.  Davudun qardaşları Şaulun ordusunda döyüşürdülər.  Qardaşlarına yemək aparmaq və onlardan bir xəbər gətirmək üçün Yessey Davudu ordugaha göndərdi.



Qolyat adlı NƏHƏNG Filiştli cəngavər bütün İsrail əsgərlərini qorxutmuşdu.



Qolyat qışqırırdı: “Özünüz üçün adam seçin və qoy o, mənim yanıma gəlsin!  Əgər o, mənimlə döyüşə və məni öldürə bilərsə, onda biz sizin qulunuz olacağıq. Amma əgər mən onu öldürsəm, onda siz bizim qulumuz olacaqsınız və bizə qulluq edəcəksiniz”.



İsrailin bütün kişiləri cəngavəri görəndə ondan qaçdılar və ondan çox qorxdular.

Onda Davud Şaula dedi: "Qoy bu adamdan ötrü heç kim ürəyini üzməsin; sənin qulun gedəcək və o Filiştli ilə vuruşacaq".  Şaul istəyirdi ki, Davud zireh geyinsin və qılınc daşısın.  Əksinə, Davud öz sapandını götürdü və çaydan özünə beş hamar daş seçdi.



Qolyat gənc Davudun zireh geyinmədiyini görəndə güldü. O nərə çəkdi: “Sənin ətini göydəki quşlara və çöldəki heyvanlara verəcəyəm!” Davud cavab verdi: “Mən sənin üstünə Rəbbin ismi ilə gəlirəm!” “Bu gün Rəbb səni mənə təslim edəcək …çünki bu döyüş Rəbbindir!”





Sonra Davud
Qolyata doğru
qaçdı.  O qaçdıqca,
öz sapandından bir
daş atdı - düz
Qolyatın alnına.
Qolyat yıxıldı!

Davud cəld Qolyatın nəhəng qılıncını götürdü və onun başını kəsdi.  Filiştlilər Qolyatı ölmüş görəndə qaçdılar.



Padşah Şaul bu Davudun onu çəng ilə sakitləşdirən Davud olduğunu xatırlamırdı.  O, öz ordusunu Davuda tapşırdı, sonra adamlar Davudun qələbələrini şərəfləndirəndə o qısqandı.  Şaul fikirləşdi: “İndi o, padşahlıqdan başqa, daha nə əldə edə bilər?” Beləliklə, Şaul o gündən sonra Davuda göz qoydu.





Padşah Şaulun ağlı yenidən ona əzab verməyə başladı. Beləliklə, Davud onu sakitləşdirmək üçün musiqi çaldı. Şaul üç dəfə öz nizəsini Davuda atdı.  Ancaq Davud hər dəfə qaçıb canını qurtardı.  Şaul Davuddan qorxurdu,



çünki o bilirdi ki, Rəbb onunladır, ancaq Rəbb Şaulu tərk etmişdi.



Şaulun oğlu Yonatan isə Davudu öz qardaşı kimi sevirdi.  O, Davuda xəbərdarlıq etdi: “Atam Şaul səni öldürmək üçün axtarır”.  Beləliklə, Davud qaçdı.  Arvadı isə onun yatağına ev bütünü qoydu və gecəyarısı Davudu pəncərədən aşağı saldı.  Şaulun adamları səhər gələndə Davud artıq getmişdi.



Davud Şauldan çox uzağa qaçmalı oldu. Getməzdən əvvəl Davud və Yonatan birlikdə əhd bağladılar. Onlar həmişə bir-birlərinə kömək edəcəklərinə söz verdilər. Təəssüf ki, iki dost vidalaşdı. Davud Şaulun əsgərlərinin onu tapmaq qorxusu olmadan yaşayacağı yeri tapmaq üçün yola düşdü.



# Çoban Oğlan Davud

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

1 Şamuel 16-20

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**